**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**MƏRKƏZİ SEÇKİ KOMİSSİYASI**

**Q Ə R A R**

**№ SQ-04/2024-2**

**Naxçıvan şəhəri** **22 iyul 2024-cü il**

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Əliyev Əjdər Zahid oğlunun sədr vəzifəsindən azad edilməsi barədə**

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Əliyev Əjdər Zahid oğlu ərizə ilə Komissiyaya müraciət edərək 1 sentyabr 2024-cü il tarixə təyin edilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdə namizədliyini irəli sürməsi ilə əlaqədar olaraq vəzifəsindən azad edilməsini xahiş etmişdir. Komissiya Əliyev Əjdər Zahid oğlunun ərizəsini araşdırmış və onun komissiyanın sədri vəzifəsindən azad olunması üçün əsasların olmasını müəyyən etmişdir. Belə ki, “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 22.3-cü maddəsinə əsasən komissiyanının sədri komissiyanın iclasında üzvlər tərəfindən açıq səvermə yolu ilə seçilir. Həmin Qanunun 57.2-ci maddəsinə görə dövlət orqanlarında işləyən və ya bələdiyyə qulluğunda olan və ya media subyektlərində əmək və mülki hüquq müqaviləsi əsasında işləyən qeydə alınmış namizədlər seçki kampaniyasında iştirak etdikləri müddətdə xidməti vəzifələrini yerinə yetirməkdən azad olunurlar, müvafiq əmrin (sərəncamın) təsdiq edilmiş surətinin qeydiyyat günündən ən geci 3 gün ərzində onları qeydə almış seçki komissiyasına təqdim edirlər. Mərkəzi Seçki Komissiyasının sədri Əliyev Əjdər Zahid oğlunun ərizəsinin təmin edilməsi həm də qeydə alınmış namizədlərin bərabərliyi pisinsipi baxımında zəruridir.

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 20.4-cü, 20.13-cü, 22.3, 23.3-cü, 23.4-cü və 57--ci maddələrinə əsasən

**q ə r a r a   a l ı r :**

1. Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Əliyev Əjdər Zahid oğlunun ərizəsi nəzərə alınaraq o, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri vəzifəsindən azad olunsun.
2. Komissiyanın üzvü Əliyev Əjdər Zahid oğlu namizədliyini irəli sürdüyü tarixdən seçkilərin nəticələrinin rəsmi təsdiq edildiyi tarixədək komissiyanın iclaslarından kənarlaşdırılsın.
3. Qərar dərc edildiyi gündən qüvvəyə minir

**Sədr müavini :** **Xatirə İbrahimli**

**Katib:** **Əkrəm Hüseynzadə**